# 6 min il bundan əvvələ aid "Qaraçinar" yaşayış məntəqəsi aşkarlanıb

**Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları Goranboy rayonunun Qaraçinar kəndi ərazisində arxeoloji qazıntı işləri aparıblar.**



İyunun 19-dan iyulun 8-dək aparılmış arxeoloji qazıntılar zamanı İlk Tunc, Antik və Orta Əsrlər dövrünə aid "Qaraçinar" çoxtəbəqəli yaşayış məntəqəsi aşkar edilib.

Qazıntı işlərində yerli arxeoloqlarla yanaşı, italiyalı arxeoloq Palumbi Cuilio da iştirak edib. Qazıntı işlərinin aparıldığı iki mədəni təbəqədə Erkən Tunc dövrünə aid kərpic divar qalıqları, təsərrüfat quyuları, ocaq yerləri, saxsı qab hissələri və daşdan hazırlanmış əmək alətləri aşkarlanıb.